**Millət vəkili, Xalq Parlamentinin "Hüquq və dövlət quruculuğu Komitəsi"nin sədri Qurban Məmmədovun**

**"Azərbaycan Respublikasında amnistiya aktlarının təkamülü** (2003–2025):

**HUMANİST HÜQUQİ İNSTİTUTDAN SELEKTİV VƏ ANTI-AMNİSTİYA MEXANİZMİNƏ KEÇİD" mövzusunda**

# ÇIXIŞI

Hörmətli Sədr!

Hörmətli millət vəkilləri!

Mən, öncə, amnistiya mövzusunda əsas məruzəçi hörmətli millət vəkilimiz Ataxan Əbilova çox geniş və elmi baxımdan arqumentləşdirimiş məruzəsinə görə təşəkkür edirəm.

Amnistiya institutu klassik hüquq nəzəriyyəsində humanizm, mərhəmət və sosial ədalət prinsiplərinin təzahürü kimi qəbul olunur.

Amnistiya cəmiyyətlə dövlət arasında gərginliyin yumşaldılması, cəzanın tərbiyəvi məqsədinin ön plana çıxarılması və hüquqi barışın təmin edilməsi üçün nəzərdə tutulmuş fövqəladə normativ aktdır.

Lakin avtoritar idarəetmə modellərində amnistiya institutu getdikcə hüquqi mahiyyətini itirərək siyasi idarəetmə alətinə çevrilə bilər və artıq Azərbaycanda məhz bu proses baş verirb.

Mən bu məruzəmdə:

- 2003–2025-ci illər ərzində qəbul edilmiş amnistiya aktlarını müqayisəli şəkildə təhlil etməklə,

- onların oxşar və fərqli cəhətlərini göstərməklə,

- "humanistləşmə" əlamətlərini və tətbiq məhdudiyyətlərinin genişləndirilməsini sizin diqqətinizə çatdırmaqla,

- nəticə etibarilə, bu aktların “anti-amnistiya” xarakteri almasını və siyasi idarəetmə aləti kimi istifadə edildiyini faktlarla sizin diqqətinizə çatdırmaqla həmin prosesin necə baş verdiyini göstərməyə çalışacağam.

Yəni Azərbaycanda qəbul edilən amnistiya aktları hüquqi mahiyyətindən tamamilə məhrum edilib, o, sadəcə, siyasi idarəetmə aləti kimi istifadə edilir.

**1. 6.05. 2003-cü il tarixli, "Ikinci dünya müharibəsində faşizm üzərində qələbənin ildönümü münasibətilə amnistiya haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Q Ə R A R I**

**Keçid mərhələsinin simvolik humanizmi**

Bu amnistiya hakimiyyətin atadan oğula ötürülməsi ərəfəsində qəbul edilmişdi və formal olaraq humanist ritorika üzərində qurulmuşdu. Mətnin strukturu klassik amnistiya modelinə uyğun idi: sosial qruplar geniş göstərilir, az ağır cinayətlər üzrə cəzalardan azadetmə nəzərdə tutulurdu.

Lakin bu aktda artıq mühüm bir tendensiya müşahidə olunurdu: “ağır və xüsusilə ağır cinayətlər” anlayışı elastik şəkildə şərh edilirdi ki, bu da siyasi motivli işlərin avtomatik istisnasına imkan yaradırdı. Beləliklə, 2003-cü il amnistiyası humanist institutun başlanğıc nöqtəsi olmaqla yanaşı, selektiv tətbiqin ilkin mexanizmlərini də formalaşdırdı.

Amnistiyada zahirən, qulaq oxşayan söz bolluğu var idi, humanizmdən, mərhəmətdən danışılırdı, ancaq həm mahiyyətcə, həm də tətbiqi nəticələrində bu anlayışlardan əsər-əlamət yox idi.

**2. 8.05. 2007-ci il tarixli, "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" amnistiya.**

Hörmətli millət vəkilləri, "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev" sözləri mənə aid deyil, sadəcə, amnistiya haqqında Milli Məclisin qərarında belə yazıldığı üçün təkrarlamağa məcburam.

Yeri gəlmişkən, rəsmi dövlət sənədlərində, xüsusilə də, Milli Məclisin qəbuil etdiyi hər hansı sənəddə Heydər Əliyevin adının qabağına "ümummilli lider" kimi epitetlərinişlədilməsi qanunvericilik texnikasına tamamilə ziddir və yolverilməzdir. Ancaq diktaturalar qanun tanımazlar.

Bu amnistiya aktını fərqləndirən əsas cəhət **"Selektivliyin normallaşdırılması"dır.**

2007-ci il amnistiyası artıq hakimiyyətin tam konsolidasiyası şəraitində qəbul edildi.

Bu mərhələdə amnistiyanın hüquqi texnikası təkmilləşdirildi və məhdudiyyətlər ayrıca və geniş bölmə kimi formalaşdırıldı.

Əsas xüsusiyyət ondan ibarət idi ki, siyasi cinayət anlayışı birbaşa göstərilməsə də, “ictimai təhlükəlilik” kateqoriyası vasitəsilə siyasi fəaliyyətlə bağlı bütün cinayət tərkibləri amnistiya çərçivəsindən kənarda saxlanıldı.

Bu akt amnistiyanın hüquq deyil, hakimiyyət iradəsinin təzahürü olduğu mesajını möhkəmləndirdi.

**3. 17.03. 2009-cu il tarixli, "Novruz bayramı münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin qərarı.**

**Bu amnisiya ilə də amnistiyalar cəmiyyəti, hətta ictimai şüuru belə idarə etmə normasına çevrildi.**

18.03.2009-cu il tarixli Konstitusiya dəyişikliklərindən 1 gün sonra qəbul edilən bu amnistiya, cəmiyyətdə Konstitusiyaya ediləcək mürtəce dəyişikliklərə qarşı mümkün ictimai etirazların qarşısını almaq məqsədilə, referendumdan əvvəl ictimai müzakirəyə çıxarıldı. Bu, çox məkrli niyyətlərlə atılan, xalq etirazlarının qarşısını "amnistiya arzuları" ilə almağa yönələn bir addım idi.

Bununla da amnistiyanın açıq şəkildə idarəedici normativ akt kimi istifadə edilə biləcəyi təcrübəsi formalaşdırıldı.

Bu amnistiyada humanist məzmun statistik azadetmə rəqəmləri ilə əvəz olundu. Cəmiyyət bunu görmədi, bilmədi, başa düşmədi.

Çünki xalqa bunu çatdırmalı dillər, ya əvvəlcədən müxtəlif vasitələrlə susdurulmuşdu, ya da heydərizm tərəfindən cəmiyyətdə yaradılan xov və qorxu nəticəsində bu dillər lal olmuşdu.

Az-az çıxan səslər isə cəmiyyətin eşidə biləcəyi səviyyədə deyildi.

Bu mərhələdə amnistiya:

- siyasi loyal olmayan şəxslər üçün tam qapalı,
- sosial cinayətlər üzrə isə kütləvi tətbiq edilən mexanizmə çevrildi.

Bu, hüquqi dövlət anlayışı baxımından ciddi deformasiya idi. Görməli şəxslər bunu vaxtında görmədi.

**4. 07.05. 2013-cü il tarixli "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə amnistiya elan edilməsi haqqında".**

**Yenə də, xüsusi vurğulamaq istəyirəm: "ümummilli lider" ifadəsi mənə məxsus deyil. Bədii yaradıcılıq xəstəliyi tutan Milli Məlisə aiddir.**

Bu amnistiya prezident seçkiləri ərəfəsində qəbul edildi və beynəlxalq ictimaiyyət üçün “islahatçı" görüntüsü yaratmaq məqsədi daşıyırdı. Amnistiyanın mətnində Sosial kateqoriyalar genişləndirilsə də, məhdudiyyətlər rekord həddə çatdırıldı.

Bu akt amnistiyanın artıq hüquqi institut deyil, siyasi legitimlik istehsalı vasitəsi olduğunu açıq şəkildə nümayiş etdirdi.

Bu, saxtalaşdırılacağı əvvəlcədən hamıya bəlli olan **prezident seçkiləri öncəsi hüquqi kosmetika rolunu oynayan bir akt oldu.**

**5. 20.05. 2016-cı il tarixli, "28 May – Respublika günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərar.**

26.09.2016-cı il tarixli referendumla həyata keçirilən növbəti irticaçı konstitusion dəyişiklikləri fonunda qəbul edilən bu akt, amnistiya institutu kimi tam instrumental xarakter aldı. Bu mərhələdə amnistiya:

- azadetmə mexanizmi deyil,
- təhlükəsizlik filtrinə çevrildi.

Humanizm anlayışı faktiki olaraq hüquqi məzmundan çıxarıldı.

**6. 05.11.2021-ci il tarixli, "8 Noyabr – Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin qərarı.**

Bu amnistiyanı mən belə xarakterizə edərdim: zəfər diskursu fonunda paradoks.

44 günlük müharibədən sonra qəbul edilən bu amnistiya paradoksal xarakter daşıyırdı. Qalib dövlət narrativinə baxmayaraq, siyasi məhbus kateqoriyası yenə də istisna edildi.

Bu, dövlətin, əslində isə dövlətin yox, rejimin, HEYDƏRİZM rejiminin özünə inam probleminin hüquqi təzahürü kimi qiymətləndirilə bilər.

Rejim xalqdan qorduğunu, xalqa etimad etmədiyini, xalqa nifrət etdiyini və onu düşmən kimi gördüyünü bu amnistiya ilə ortaya qoydu.

**7. Nəhayət 19.12. 2025-ci il tarixli "“Konstitusiya və Suverenlik İli” münasibətilə amnistiya elan edilməsi haqqında" MM-in qərarı.**

**Anti-amnistiyanın normallaşması**

**Bu məqamda, hörmətli millər vəkilləri, sizin və ekran qarşısında bizi izləyən milyonlarla vətəndaşımızın diqqətinə çox vacib bildiyim bir məsələni çatdırmaq istərdim.**

**Əgər diqqət etdinizsə, 2003-cü ildən başlayaraq verilən 7 amnistiyanın yalnız üçü Əmək Məcəlləsinin** 105.-ci maddəsində göstərilən rəsmi bayram münasibətilə verilib: Novruz bayramı, Müstəqillik günü və Zəfər bayramı münasibətilə. İkisi Heydər Əliyevlə bağlı, sonuncu isə 2026-cı ilə verilmiş mücərrəd bir ad münasibətilə.

Sizcə niyə? Bu barədə düşünməyə dəyər. Məncə, bu başqa bir müzakirənin mövzusu olmalıdır. Xalqımıza bu rejimin "amnistiya siyasəti"nin əsl mahiyyətini açıb göstərməliyik.

“Konstitusiya və Suverenlik İli” çərçivəsində qəbul edilən bu sonuncu amnistiya, bundan əvvəl qeyd etdiyim kimi, artıq açıq şəkildə anti-amnistiya xarakteri daşıyır.

Məhdudiyyətlər detallı siyahılarla göstərilir, siyasi cinayətlər birbaşa istisna edilir.

Bu mərhələdə amnistiya institutu artıq klassik hüquqi mahiyyətini tam itirib.

**Bu 7 amnistiyanı ümumi müqayisəli təhlil etdikdə aşağıdakı nəticələr ortaya çıxır.**

**Oxşarlıqlar:**

- bütün aktlarda selektivlik,
- siyasi cinayətlərin sistemli istisnası,
- humanizmin ritorik xarakter daşıması.

**Fərqlər:**

- zaman keçdikcə məhdudiyyətlərin sərtləşməsi,
- hüquqi texnikanın təkmilləşdirilməsi,

- amnistiyanın açıq siyasi alətə çevrilməsi.

**Bu dediklərim tam anlaşılsın deyə, sonuncu amnistiyanın 7.1.-ci maddəsinin qısa analizini diqqətinizə çatdırmağı vacib hesab edirəm.**

**Maddədə deyilir:** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-cü və 15.5-ci maddələrində nəzərdə tutulan ağır və xüsusilə ağır cinayətlərə, həmçinin Cinayət Məcəlləsinin .... diqqət! və CM-nin 239 maddəsi buraya köçürülüb.

1. maddədən gördüyünüz kimi, ağır və xüsusilə ağır cinayətlər amnistiyaya düşmür.

2. qaldı böyük ictimai təhlükə törətməyən cinayətlər (iki ildən artıq cəza nəzərdə tutulmayan cinayətlər) və az ağır cinayətələr (7 ildən artıq cəza nəzərdə tutulmayan cinayətlər).

İndi amnistiyanın 7.1.-ci bəndində göstərilən, çox yox, 2-3 maddəyə diqqət edin:

- 122.2. Güclü ruhi həyəcan vəziyyətində iki və ya daha çox şəxsi qəsdən öldürmə—

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
sizcə, 2 və daha artıq şəxs tərəfindən zorlandığına, işgəncəyə məruz qaldığına görə, onları öldürən şəxs amnistiyaya düşməlidir, ya yox.

- M a d d ə 1 2 4 . **Ehtiyatsızlıqdan adam öldürmə**

124.1. Ehtiyatsızlıqdan adam öldürmə—

iki ilədək müddətə islah işləri və ya *üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya* **üç ilədək** müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
124.2. Ehtiyatsızlıqdan iki və ya daha çox adamı öldürmə—
iki ildən **altı ilədək** müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.
Sizcə bu maddə necə, amnistiya düşməlidirmi?

CM-nin 15.4.-cü maddəsinə əsasən, 7 ildən yuxarı, 12 ildən aşağı cəza nəzərdə tutulan cinayətlər ağır cinayət sayılır və amnistiyaya düşmür.
İndi sual verirəm: CM-nin 126.1-cı maddəsində nəzərdə tutulan, ağır cinayət sayılan "qəsdən sağlamlığa ağır zərər vurma cinayətinə görə" 8 ilədək cəza nəzərdə tutulan maddə ilə birlikdə, yuxarıda qeyd etdiyim 122.2. və 124-cü maddələrinin də amnistiyaya salınmamasının **hüquqi, əxlaqi, mənəvi, dini, fəlsəfi əsası nədir?**

**Bu amnistiyanı hazırlayanlar hansı siyasi, hüquqi, əxlaqi, milli, dini kateqoriyalarla düşünürlər və onların milli, əxlaqi. dini dəyərlər nədiri!?**

Bu amnistiyalarda belə ziddiyyətlər kifayət qədərdir.

**Hörmətli millət vəkilləri və ekran qarşısında bizi izləyən əziz soydaşlar.**

Amnistiyanın 7-ci bəndində, amnistiyanın tətbiq edilməməsi üçün ağlasığmaz elə əsaslar göstərilir ki, bütün bunları nəzərə almaqla bir hüquqşünas kimi, tam məsuliyyətimlə bəyan edirəm:

**bu, amnistiya yox, ANTİ-AMNİSTİYA aktıdır və xalqı ələ salmaq, onun heydiyyatı ilə oynamaqdır.**

**Diqqətinizə görə təşəkkür edirəm.**

**27.12.2025**